## İdman xəbərləri

# Uğurlu nəticələr qazanılıb



"Qəbələ" futbol akademiyasının komandaları növbəti oyunlarını keçiriblər. U-17 öz meydanında "Zirə"ni məğlub edib - 3:2. 6 matçda 9 xal toplayan "qırmızı-qaralar" 8-ci pillədə qərarlaşıb. "Qarabağ"ı qəbul edən U-16 meydandan üç xalla ayrılıb - 2:1. 6 turdan sonra 15 xala malik "Qəbələ" 2-ci yerdədir. U-15 rəqib meydanında "Binə"yə qalib gəlib - 3:1. 4 qarşılaşmada 10 xal toplayan "Qəbələ" 3-cü pillədə yer alıb. Paytaxt zonasında mübarizə aparan U-14 "Keşlə" ilə qolsuz heç-heçə edib. 5 oyunda 7 xal yığan "qırmızı-qaralar" 7-ci sıradadır.

Digər komandalarımız isə Şimal-Qərb və Qarabağ regionunun Qəbələ zonasında qüvvələrini sınayırlar. U-13 "Şirvan"a (Ağdaş) 10 cavabsız qol vurub. Dörd turda 12 xal qazanan "Qəbələ" zonanın lideridir. U-12 İsmayıllı UGİM-inə 12 qol vuraraq ardıcıl 4-cü qələbə ilə zirvədəki yerini möhkəmlədib. U-11 Ağdaş "Şirvan"ına qalib gəlib - 10:2. Keçirdiyi 4 oyunda xal itirməyən "Qəbələ" 1-ci sırada qərarlaşıb. U-10 İsmayıllı UGİM-inin qapısından 10 cavabsız qol keçirib. Komandamız 4 oyunda topladığı 12 xalla yarışın lideridir.

# Birinciliyin qalibi olublar

Şamaxıda yeniyetmə cüdoçular arasında regional birincilik keçirilib.

Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə təşkil olunan yarışda Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Qobustan və Şamaxı idmançıları iştirak ediblər. Şimal bölgəsi üzrə birincilikdə cüdoçular iki yaş qrupunda mübarizə aparıblar.

Daha çox medal qazanan Qəbələ cüdoçuları birinci yeri tutublar.

Qaliblərə Azərbaycan Cüdo Federasiyasının diplomları, medallar və hədiyyələr təqdim olunub.

**"Qəbələ"**

## Faydalı bitkilər

# Heyvanın faydaları

Ürəkaçan xoş ətri və turşməzə dadı ilə payız mövsümünün ən çox sevilən meyvələrindən olan heyva, həm də bir çox xəstəliklərin profilaktikasında və müalicəsində əvəzsiz vasitədir. Heyva meyvələri daha çox emal olunmuş şəkildə istifadə edilir. Bu meyvədə olan pektin və dabbaq maddələri onun müalicəvi əhəmiyyətini müəyyənləşdirən əsas göstəricilərdir.

Heyva meyvəsində eləcə də şəkər, turşular, pentozalar və protopektin, müxtəlif vitaminlər var.

İnsanlar heyvadan müalicə vasitəsi kimi çox qədimdən istifadə edirlər. Hazırda bir sıra ölkələrin xalq təbabətində təzə, suda bişirilmiş heyva və onun həlimi bir çox xəstəliklərin profilaktikası və müalicəsində istifadə olunur.

Heyva soyuqdəyməyə, qanaxmaya qarşı yaxşı müalicə vasitəsidir. O, büzüşdürücülük, ümumi möhkəmlik yaratmaq, ödqovucu, sidikqovucu, qankəsici, qanyaradıcı, öskürəkkəsici olmaqla yanaşı, həm də xoraya qarşı, antibakterial və antiseptik xüsusiyyətlərə malikdir.

Müalicə vasitəsi kimi heyvanın meyvələrindən, yarpaqlarından və toxumlarından istifadə edilir. Xalq təbabətində və müasir əczaçılıqda heyva meyvələrinin toxumlarından geniş istifadə edilir. Toxumlarda amiqdalin qlükozidi (0,530 - 0,505 faiz), emulsin fermenti, şəkərlər, pektin maddələri, nişasta, dabbaq maddələri, zülal və sair var. Toxumlardan bəlğəmgətirici, öskürəkkəsici, mədə-bağırsaq xəstəlikləri zamanı sakitləşdirici və yumşaldıcı vasitə kimi istifadə olunur.



Uşaqlarda ishal xəstəliyi zamanı heyva toxumlarından hazırlanmış sulu məhlul yaxşı nəticə verir. Həmçinin bu məhlul xalq təbabətində saçın bərkiməsi üçün də təbiq edilir. Meyvələrindən, onların cövhərindən və ekstraktından qanazlığında geniş istifadə olunur. Təzə meyvələri vərəm və bronxial astma xəstəliyinə qarşı faydalıdır.

Heyva meyvələrindən hazırlanmış həlim mədə (qastrit) və bağırsaq (ishal) pozuntuları zamanı yaxşı müalicə vasitəsi hesab edilir.

Qara ciyər xəstəlikləri zamanı, ürək bulanmaları və qusmaya qarşı sürtkəcdən keçirilmiş və bişirilmiş meyvələr məsləhət görülür.

Heyva həm də ürək döyüntülərini səngidir, ümumi zəifliyi aradan qaldırır. Ürəkdamar xəstəlikləri ilə əlaqədar şişmələr baş verdikdə heyva meyvələrindən dəmlənmiş çaydan istifadə olunması əlverişlidir.

Həlimi yaxşı kosmetik vasitədir. O dərini yumşaldır.

Heyvadan həmçinin göz xəstəlikləri zamanı kompres, boğaz ağrıları zamanı qarqara kimi istifadə edilir.

Hamilə qadınlara heyva yemək daha çox faydalıdır.

# Azərbaycanda yazılmışdır

*XI əsrin ən böyük mütəfəkkiri və alimi Əbu Əli İbn Sina yaradıcılığının ən məhsuldar dövrünü Azərbaycanda keçirmiş, ona dünya şöhrəti qazandıran "Qanun" və başqa əsərlərini burada yazmışdır.*

# Pilotsuz uçuşlar həyata keçiriləcək

Bu gün dünyada hava nəqliyyatından istifadə olunmasına tələbatın artmasına rəğmən, mülki aviasiya pilotlarının sayı məhduddur.

Pilotsuz uçuşlarla bağlı ideyanı bu il Parisdə keçirilən aviasalon vaxtı "Airbus" irəli sürüb. Qeyd olunur ki, onun əsas rəqibi - "Boeing" də bu ideyanın həyata keçirilməsi üzərində işləyir. Bu layihənin hazırlanması heç də təsadüfi deyil. Hesablamalara görə, qarşıdakı 20 ildə mülki aviasiyada bütün dünya üzrə 800 min yeni pilota ehtiyac olacaq.

# Qabaqcıl texnologiyaların tətbiqi

Aeronaviqasiya provayderi AZANS ən qabaqcıl texnologiyaların tətbiqi sayəsində hava nəqliyyatının iqtisadi səmərəli, təhlükəsiz, etibarlı, çevik və dayanıqlı idarəedilməsini həyata keçirir. Bu il AZANS Qəbələ Beynəlxalq Hava Limanında hava hərəkətinin idarə edilməsi üçün rəqəmsal qüllənin istifadəsinin birinci mərhələsini uğurla başa vurub. Yeni həll "Enhanced Airport Vision Display" platformasına əsaslanır.

**"Qəbələ"**

# Mobil telefonlar bədənin hərarəti ilə şarj ediləcək

Rusiyanın Milli Tədqiqat Texnoloji Universitetində tədqiqatlar aparan beynəlxalq alimlər qrupu nano borucuqların əsasında termoelektrik polimer hazırlayıblar. Bu material insan bədəninin hərarəti ilə mobil cihazları şarj edən bilərzik-qurğuların hazırlanmasında istifadə olunacaq.

"MİSiS"-in məlumatında deyilir ki, kimyəvi birləşmələr və metal ərintiləri termoelektrik materiallara aid edilir və onlar istini elektrik enerjisinə çevirə bilir. Hazırda bu materialların transformasiya gücü cəmi 10 faizdir, lakin cihazların batareyalarını doldurmaq üçün bu göstəricinin 100 faizə çatdırılması tələb olunur.




Alimlər polimer materialları alternativ kimi qəbul edirlər. Onlar otaq temperaturunda işləyə bilir, elastik olduğundan müxtəlif formalar alır. Toksik olmayan bu materiallar istiliyin transformasiyası zamanı daha az itkilərə məruz qalır.

Uzadılmış nano borucuqlar əsasında hazırlanan polimer materiallardan gələcəkdə telefonu bədən hərarəti ilə şarj edəcək bilərzik-qurğuların istehsal edilməsi nəzərdə tutulub.

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 aprel 1998-ci il tarixli 07 saylı qərarı ilə Bılıx kənd sakini **Şeydayev Fizuli Sədi oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 077 F nömrəli (kod 40612028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 aprel 1998-ci tarixli 07 saylı qərarı ilə Bılıx kənd sakini **Şeydayev Fizuli Sədi oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 077 A nömrəli (kod 40612028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 aprel 1998-ci tarixli 07 saylı qərarı ilə Bılıx kənd sakini **Şeydayev Fizuli Sədi oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0055 nömrəli (kod 40612028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

---

Qəbələ Rayon Aqrar İslahat Komissiya DİSPLAY-ının 28 oktyabr 1998-ci il tarixli DİSPLAY 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Kərimov Mehman İlyas oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 606 F nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Kiçik Əmili kənd sakini **Qurbanov Əsgər Pəpəş oğluna** verilmiş JN seriyalı 137 nömrəli (kod 40607038) **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

## Maraqlı faktlar

- İnsan böyüdükcə ürək döyüntülərinin sayı da azalır.
- Tokioda 1990-cı ildə müşahidə edilən ən böyük avtomobil tıxacının uzunluğu 135 km olub.
- 100 stəkan qəhvə içmək insanı öldürə bilər.
- Cənubi Koreyada eyni soyadına malik insanların evlənməsi qadağandır.
- Bəzi diş pastalarının tərkibinə antifriz daxildir.
- Bayt sözü səkkiz sözünün qısaldılmışıdır (by eight).
- Dələlər ağacda daha sürətlə qaçırlar nəinki yer üzərində.
- İnsan burnunda 5 milyona yaxın iybilmə hüceyrələri mövcuddur.
- Filmlərdə ən çox yer alan idman növü boksdur.

Azərbaycanın Samux rayonunda Lüksemburg adlı kənd var.

# ALLAH RƏHMƏT ELƏSİN!

116 saylı Qəbələ Seçki Dairəsinin kollektivi 4 saylı şəhər seçki məntəqəsinin katibi

**Məmmədxan Məmmədağayevin**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir, mərhumun yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Təhsil Şöbəsinin rəhbərliyi və kollektivi şəhər 3 nömrəli tam orta məktəbin sabiq müəllimi

**Məmmədxan Məmmədağayevin**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Təhsil Şöbəsinin rəhbərliyi və kollektivi Zarağan kənd 1 nömrəli tam orta məktəbin müəllimi, Əməkdar müəllim

**Nizami Səfərəliyevin**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu **Xanlar və Mərziyə Əfəndiyevlərə** əzizləri

**Məhəmmədəli kişinin**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir, kədərlərinə şərik olur.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib
Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1360*